

*Ağaddin BABAYEV*

## *Dağlara qalxıram...*

Talış dağlarında hər cığır, hər iz
Gözümüz üstündə yerin var dedi.
Daşlı dodqları dindi səbirsiz:
"Amandı, dumanı tez qaytar!"-dedi.

Gülür yal-yamaclar, gülür dağ-dərə,
Bahar nəğmə olub - dəlisov, kövrək.
Dağları yaşadan gözəlliklərə
Burdan yol ötənlər dəyməsin gərək!

Dağların fikirli, qəmli görkəmi
Qışın caynağında ilişib qalıb.
Burda gül-çiçəklər birmi-ikimi?
Günəşin seyrinə min baxış dalıb.

Zirvəyə baxıram, ürəyimdə qəm,
Bir qərib həsrətlə yenə dolmuşam.
Dağlara qalxıram, elə bilirəm
Qayıdıb təzədən uşaq olmuşam...

## *Ümid*

Bizim təsəllimiz, səbrimiz təki,
Onu çağırırıq hər vaxt, hər zaman.
Bəzən öz-özümə düşünürəm ki,
Ümid olmasaydı neylərdi insan?

## *Oxuyun, ay qızlar*

Oxuyun, ay qızlar, şaqraq səsiniz
Dolaşsın kəndbəkənd, şəhərbəşəhər.
Hey çalıb-çağırın, yallı gedin siz,
Şirin nəğmənizlə açılsın səhər.

Oxuyun, oynayın, qurbanam sizə,
Könlümdə kədər var- boğazdan asın.
Ötün bəmdə-zildə, hər nəğmənizdə
Qolsuz Babəkimin ruhu yaşasın.

Mənim Odlar yurdum uludan ulu,
Onun hər nəğməsi kövrək ürəkdir.
Nəğmə -sevgi yolu, məhəbbət yolu,
İnsana gərəkdir, ömrə gərəkdir.

Oxuyun, səsiniz ucalsın göyə,
Nəğməsiz həyatda nə gün görərdim?
Dünyada bir nəğmə çoxalsın deyə,
Ömrümü, canımı qurban verərdim!

## *Lənkəran axşamları*

Nur selində yuyunur
Şəhərim başdan-başa.
Şəfəqlər damcı-damcı
Qonur torpağa, daşa.
Əfsanəmi, nağılmı?
Tamaşadır, tamaşa
Lənkəran axşamları!

Göy Xəzərin sahili
Neçə oğlanlı-qızlı.
Hər oğlan şümal-şümal,
Hər qız incədir, incə.
Dəniz nəğməli, sözlü,
Ürəklər coşur necə
Lənkəran axşamları!

Adı nəğməyə dönən
Solmaz, Xavər, Hacıdır,
Hər igidin hünəri
Ona şöhrət tacıdır.
Bakı axşamlarına
Sanki kiçik bacıdır
Lənkəran axşamları!

## *Üşüyəcək*

Bu gün evinizə yığıb bir kəndi
"Vağzalı" sükuta kəsilər qənim.
Təskinlik verməyə gəl, bir himə bənddi
Kəpənək qanadlı ürəyim mənim.

Sənin o günahsız baxışlarından
Öpərdim min kərə, doymazdım yenə.
Hardan biləydim bəs bir vaxt, bir zaman
Hicranı pay kimi verərsən mənə?

Demək nahaqdanmış, hədər olarmış,-
Mənim kükrədiyim, aşıb-daşdığım.
Qəlbimə yüklənən kədər olarmış-
O vaxt dostlarımdan uzaqlaşdığım.

Bir dəli həsrətə dönərmiş hər şey,
İllər də beləcə nağıllaşarmış.
Qəmli gözlərindən oxunan giley
Yollara boylanıb - gözü yaşarmış.

"Vağzalı" səsinə bürünüb hər yan,
Bəlkə də aləmə hay düşəcəkdir.
Mənim həsrətimin soyuqluğundan
Sənin toy günün də üşüyəcəkdir!

## *Qəlbimlə ağlımın davası başlar*

Haçansa könlümə bir həvəs gələr,
Əllərim uzanar sevgiyə sarı.
Haçansa evimə bir nəfəs gələr,
Bir az da uzanar eşqin yolları.
Sevinclə vurarıq başa hər anı,
Ağrıya, acıya gərərik sinə.
Bir gün də... unudub əhdi-peymanı
O qız dönük çıxar məhəbbətinə.
Qurbanı olarıq nifrətin, kinin,
Beləcə bir evin çırağı sönər.
Anıb günahını, anıb səhvini...
Yenə də o gözəl geriyə dönər.
Gözündən sel kimi yağar yağışlar,
Qəlbimlə ağlımın davası başlar.

Gəzib dolaşaram aranı, dağı,
Bir səs qulağıma gəlib çatacaq:
"De, mənim günahım bəs nədi axı!
Hardasan, hardasan, qayıt, atacan?!
Qayıt, ömrüm-günüm, qayıt, tez gəl sən,
Təzəcə alışan bir şamam mən, şam.
Atamın, anamın tutub əlindən
Hələ bu dünyanı tanımamışam.
Başqa fikirləri sən başından at,
Mənim taleyimi bir düşün barı.
Gəl mənim üstümdə qanad ol, qanad,
"Qanada möhtacdır qız uşaqları".
Bu səsdə ilahi bir duyğu yaşar,
Qəlbimlə ağlımın davası başlar.

Sonra bir gecənin aydınlığında
Kimsəsiz sahilə yan alacağam.
Bu tənha çağımda, qəmli çağımda
Oturub xəyala mən dalacağam.
Balıqlar tullanıb düşər min kərə,
Ləpələr gümüştək parıldayacaq.
Gözlərim zillənib uca göylərə,
Baxıb ulduzları bir-bir sayacaq.
Xoş anlar "əlvida" deyəndə bizə,
Möhnətsiz bir heyrət çəkər fikrimi,
Bir durna ayrılıb düşər dənizə,
Durub qışqıraram mən dəli kimi.
Səsimə səs verər qayalar, daşlar,
Qəlbimlə ağlımın davası başlar!

## *Naməlum əsgərə*

**II Dünya müharibəsindən qayıtmayan Vahab babamın əziz xatirəsinə**

Salam, a nənəmin söhbəti-sözü,
Sənsizlik üşüdür evi-ocağı.
Dikilib yollara bir nəslin gözü,
Nə qədər, nə qədər gözləyək axı?!

Dörd il kürələrdə pörşəldik, bişdik,
Söndü ürəklərin arzu-murazı.
Nənə nağılını çox dinləmişdik,
Baba nağlına qaldıq tamarzı.

Hələ ürəklərdə daş kimidi qəm,
Getmir o illərin vurduğu yara.
Sənə yana-yana nəğmə demişəm,
Baba, ünvanın yox, göndərim hara?

Yolunu gözləyir bu el, bu oba,
İllər arxasından çıxıb gəlsənə.
Nənəmə, anama bəllisən, baba,
Bəs niyə naməlum deyirlər sənə?!

Ədalət.- 2021.- 1 may.- S.13.